bir falçını tez-tez xatırlayırdı. Xatırlayıb heyrətlənirdi, Allaha şəkk gətirənə söyürdü" və s.

Hekayə birbaşa bizə, bizim "mən"imizə toxunan, onu ("mənimiz"i) adsız adam kimi qarşımıza çıxaran obrazı, məzmunu ilə diqqətimizi çəkdi. Bu adamın (eləcə də bizim) bir insanlıq nəzəriyyəsi, bir də insan kimi yaşam praktikası var. Nəzəriyyədə, xəyalən qəhrəmandır, nəcib, azad, iradəli biridir. Lap bizim kimi... Həyatda isə cismi, fiziki varlığı və bapbalaca məişəti ilə əlləşir. Yenə də lap bizim kimi...

Xəyalında qonşudakı Xeyri qarıya çox "hörməti" keçmişdi, bu qarı onun sadəcə qonşusu idi, onun gərginliklərinin bu adama aidiyyəti olmamalı idi. Fəqət: "Bu qarının ona dəxli yox idi, bu qarı onun heç kimi idi - bunu çox təkrarlamışdı, intəhası, özü ilə bacarmırdı, divarın o üzündəki hənirti ovqatını qarışdırırdı, evlərində heç kim olmayanda ərinməyib səsə çıxırdı, ya arvad-uşaqdan kimisə göndərirdi, lazımdısa, həkim çağırtdırırdı, dava-dərman tapdırırdı, həyət-bacada qoluna girirdi, aftafasını doldururdu, uzun-uzadı şikayətlərinə səbirlə qulaq asırdı... və bütün bunları fikrində eləyirdi. Beləcə, o çoxuna yaxşılıq eləmişdi, dar gündə dadına çatmışdı. Ona görə də həmin adamlardan yamanlıq, kobudluq, soyuqluq görəndə yanıb-yaxılırdı".

Səlvinin böyük bacısı üç yaşında ölmüşdü. "Qohum-qardaş yaylağa yeyib-içməyə gedibləmiş, başları qarışır, bir də görürlər uşaq yoxdu. Axtarmadıqları, gəzmədikləri yer qoymurlar, meşəni ayaqdan salırlar, uşaq tapılmır ki, tapılmır... Uşağı səhər qayıdıb tapıblar, süfrə açdıqları yerdən bir azca aralıda. Deməə, onların başı qarışanda, uşaq gedib kolun dibində yatıbmış. Ona görə də gəzənlərin səsini, harayını eşitməyib. Deyir uşaq yan-yörəsini qazıq-qazıq eləyibmiş..."

Bu, uşağın taleyinə də reaksiyasız qalmır. Elə hey fikirləşir və "axır dözmədi, həmin ilə, həmin günə qayıtdı, gecənin bir aləmi yolunu o meşədən saldı, ağlamaqdan səsi kəsilmiş uşağı tapıb bağrına basdı, öpə-öpə, əzizləyə-əzizləyə meşədən çıxartdı, aparıb dərddən üzülmüş ata-anasına qaytardı"... Yenə sadəcə xəyalında...

Hekayəni oxuyarkən bu adsız qəhrəmanın maraqsız bir tip olduğunu düşünürsən. Amma sonra görürsən ki, bu adamı unuda bilmirsən. Heç nə etməyib, heç bir əlahiddə keyfiyyəti, dərdi, sevinci ilə yadda qalmır. Fəqət onun iç söhbəti, içi, daxili ilə münaqişəsi bizi də yorur. Bax, o an düşünürsən: Bu mənim qəhrəmanımdır. Bizim daxili təbəddülatımızın obrazıdır, bədii şəklidir. Onun vecsiz görünən zahiri portreti yenidən dillənir, səni narahat edir. Mənasız yaşamı, təmənnalı sevgisi, praktik olaraq "heç kim" statuslu bu adamın içində Xeyri qarının acıları var, sevdiyi qadın Səlvinin lap çoxdan meşədə itkin düşüb həlak olmuş 3 yaşlı bacısının nisgili var. O düşüncələrində qəhrəmandır, humanistdir... Xeyri qarıya necə şəfqət göstərir, Səlvinin bacısını ata-anası az qala yaddan çıxarır, amma bu adam dözmür, yollanır meşəyə və ətrafını dırnaqları ilə cızıq-cızıq etmiş körpəni ölümdən xilas edir. Və qəribədir ki, bu körpə həm də Səlvinin özü kimi də işarələnir... ( Yenə xəyalında!)

Bəli, əsas məsələ də bundadır. Bu insan əzab çəkir, narahat olur. Bir addımlığındakı qarıya, çox uzaq illərin o tayında faciəli şəkildə ölən, üzünü belə görmədiyi körpəyə görə də...

Arvadı, uşaqları üçün çalışırdı. Onların da, özünün də qayğılarını çiyninə yükləyib sürüməyi kişilik borcu kimi icra edirdi. Avtobusda tanış olub sevdiyi, ara-sıra gizli-gizli görüşdüyü Səlvini isə özü üçün sevirdi, öz eqosunun, istəyinin qurbanına çevirmişdi qızı... Bu sevgi onun ailə nümunəviliyinə mane olmurdu, sadəcə hisslərini, istəklərini əyləndirirdi bu qızın sevgisi ilə... "Yaxşı ki, Səlvi onu incitmirdi, ürəyini ələk-vələk eləmirdi, astarına çevirmirdi. O da Səlviyə əxlaq dərsi vermirdi, arvad-uşaqlı kişinin subay, cavanca bir qıza tay olmadığını söyləyib onu haqq yoluna qaytarmağa çalışmırdı. Onsuz da haçansa ayrılacaqdılar, gec-tez nəsə olacaqdı, ya birdən-birə, ya yavaş-yavaş. Onsuz da həyat da müvəqqətiydi. Yel, miokard, astma... ya avtomobil qəzası".

Onun daxilindəki "sevgi" adlı anlayışın da o biri üzünü çevirir müəllif. Məlum olur ki, Səlviyə sahib olmaq, onun istəyini həmişə ayaqda saxlamaq, qorumaq cəhdi Səlvini qorumaq, müdafiə etmək fədakarlığı deyilmiş. Səlvini uduzmamaq, əldən verməmək acgözlüyü kimi bir şeymiş... ("Bəlkə də Səlvini itirmək ona o qədər də yer eləməzdi, ancaq uduzmaq pis şeydi".) Bu sevgi macərasını, oyununu özü üçün eksperiment arenasına çevirir. "Ona görə Səlvidən soyuqluq hiss eləyəndə tezcə özünü yığışdırırdı, dönüb olurdu həssas, qılıqcıl, mehriban, məşuqəsi yolunda hər məşəqqətə qatlaşan igid bir oğlan. Bəlkə də Səlvini itirmək ona o qədər də yer eləməzdi, ancaq uduzmaq pis şeydi, bunun ağrısına, özü də bu yaşda, dözə bilməyəcəyindən qorxurdu. Həm də istəyirdi özünü bir sınasın, görsün divlərlə vuruşmağa qüvvəsi çatırmı, hələ nəyəsə qadirdimi".

Hekayədə sosial-siyasi, iqtisadi, günün aktual problemləri həddində bədiiləşən mətn detallarına, fraqmentlərinə rast gəlməsək də, günün, zamanın qayğıları və təbəddülatları ilə yaşayan *insana* rast gəldik. Çoxlu öhdəlikləri olan ("...bunu eləmə, ona baxma, nəfsini boğ, ata-ananı sev, namus, vicdan, qeyrət - gəl indi bütün bunların içində baş çıxar, büdrəmə, yıxılma, alçalma"...), xoşbəxt olmaq şansı isə sıfıra bərabər tutulan bu insanın taleyini isə sanki Allah insanın öz ümidinə buraxıb: Bacarırsansa xoşbəxt ol, bacarmırsansa mən verdiyim tale ilə barış, bir ömür boyu daşıyacağın yükə, əzaba sahib çıx!

Müəllif tərəfindən araşdırılan, üzü astarına, astarı üzünə çevrilən insan sonda sevgilisinə üzünü tutub fikirləşir: "Qoy onda biz başqa cür düşünək, Səlvi xanım, deyək ki, insan dünyaya əzab çəkmək üçün gəlir. Belə fikirləşək və taleyimizlə barışaq. Kim bilir, bəlkə taleyimizlə barışanda biz elə xoşbəxt oluruq?!"

S.Budaqlı hekayəsinə roman yükü çəkdirə bilib... Süjetin boyu kiçik olsa da, təxəyyüllə budaqlanan, törəyən süjetlər oxucuya həvalə edilir. Və biz mətni oxuyub bitirəndən sonra az qala müəllif qədər emosional, həyəcanlı, təhlilçi, müşahidəçi oluruq. Unuda bilmədiyimiz insanların (Səlvi, Xeyri qarı, adsız adam, onun arvadı, pıça-pıçla danışa-danışa bir yellənən köhnə pilləkən üstündə ömür sürən qonşuları və b.) nağılını, hekayəsini düşünürük. Onları ruhən, qəlbən sevirik. Ətrafımızda onların oxşarları olan insanları arayırıq. Belə səyahətlərin marşrutu isə çevrə boyu hərəkət edir. Sonda yenə özümüzə, daxilimizə dönürük. Bu nədir? Hər şey məndən başlayırmış ki! Hamı mənim daxili dünyamdan doğulub artır, dünyanı bürüyürmüş ki... Ölümlərə, nakam talelərə də aidliyimiz olmasa belə, cavabdeh ola bilirmişik, sən demə...

Və belə bir insan mütləq özünə güc yığmalı, mübariz olmalı, mücadilə etməlidir yəqin... Amma qəhrəmanımızın bu mübarizəyə gücü çatmır, gücü yoxdur... Hekayədəki bütün "yox"lar şəbəkəsi böyüdükcə böyüyür... Bircə kiçik mübarizə işartısı ilişib qalır yaddaşımızda. Adsız qəhrəmanımız "yox"lar boşluğunda ümidsiz-ümidsiz gülümsəyir, həyata, acılara, insanların ağrılarına və hamının üzünə... Lap bizim kimi...

*05 mart 2017*

**Ədəbiyyat qəzeti.- 2017.- 11 mart.- S. 11.**